**11.09.2009 11:57**
**MƏNBƏ:** LENT.AZ

# Sumqayıt yolunda avtomobil keçidi tikilir

**“Bakı Dairəvi Yolu” çərçivəsində inşa etdiyi tunelin tikintisi ilin sonunadək başa çatmalıdır**

Dünəndən etibarən “Bakı dairəvi yolu” ilə Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunu birləşdirən “Körpü-1” layihəsi çərçivəsində tunelin ikinci hissəsinin tikintisinə başlanıb. Artıq tunelin ikinci hissənin inşası üçün lazımi texnika və avadanlıqlar tikinti sahəsinə gətirilib.

“Azəryolservis” Səhmdar Cəmiyyətindən Lent.az-a bildiriblər ki, “Körpü-1” layihəsi çərçivəsində 149 ədəd dayaq nöqtəsi qazılacaq. Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunun 6-cı kilometrliyində yolun altından keçəcək tunelin ümumi uzunluğu 75 metr, eni 18, hündürlüyü isə 5 metr olacaq.

Səhmdar Cəmiyyətdə bildirirlər ki, hər birinin eni 3,75 metr olan 2 hərəkət zolaqlı tunellə yanaşı ərazidə piyadalar üçün səki də salınacaq. “Azərinşaatservis” MMC-nin “Bakı Dirəvi Yolu” çərçivəsində inşa etdiyi tunelin tikintisi ilin sonunadək başa çatdırılmalıdır.

Xatırladaq ki, hazırda tikinti işləri ilə əlaqədar Bakı-Sumqayıt istiqamətində avtomobillərin hərəkəti qismən məhdudlaşdırılıb. Alternativ marşrut kimi sürücülərə Biləcəri enişindən keçməklə Sumqayıt istiqamətində hərəkət etmək təklif olunur.

Elxan SALAHOV

**LENT.AZ**